# TARİX

UOT 94 (479.24)

## MİLLİ KOMMUNİSTLƏR, YAXUD MİLLƏTÇİ KOMMUNİSTLƏR?

**Ş.R.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***shalale01@yahoo.com***

*Məqalə XX əsrin əvvəllərində Azərbaycan siyasi səhnəsində mühüm rol oynamış milli kommunistlərin fəaliyyəti və milli siyasətdə tutduqları mövqeyin təhlilinə həsr olunub. Millətçilikdə təqsirləndirilən milli kommunistlər siyasi proseslərdə və qəbul olunan qərarlarda milli mənafeyi deyil, əslində şəxsi mənafeyi üstün tuturdular.*

**Açar sözlər:** milli kommunistlər, sosial-demokratik ideyalar, siyasi hakimiyyət, millətçilik, Azərbaycanın siyasi elitası

Müasir Vətən tarixşünaslığının XX əsrin siyasi proseslərinə, Azərbaycanda sovet rejiminin bərgərar olunmasına həsr edilmiş tədqiqatlarında yerli bolşeviklərin fəaliyyəti birmənalı şərh edilmir. Keçən əsrin 80-ci illərindən başlayaraq həyata keçirilən elmi araşdırmalarda milliyyətcə azərbaycanlı olan bolşeviklərin (N.Nərimanov, R.Axundov, M.Hüseynov, S.Həmidov və digərləri) sovetləşmənin ilk dövrlərində kecirilən sosial tədbirlərə münasibəti xalqın mənafeyinə xidmət, milli təəssübkeşlik kimi qiymətləndirilir, onların 1937-38-ci illər terroru qurbanları olması isə millətcı mövqeləri, o zaman partiya rəhbəri olmuş M.C.Bağırovun xəyanətkarlığı ilə izah olunurdu (4; 6; 10;12). Azərbaycanlı bolşeviklərin fəaliyyətinə siyasi proseslərə münasibət prizmasından qiymət verilməsi tədqiqat obyekti olan tarixi dövrün dərindən təhlil olunmaması, mənbə bazasının darlığı, problemin professional tədqiqatcı nöqteyi-nəzərindən deyil, sovet sisteminə kəskin tənqidi münasibət bəsləyən insan nöqteyi-nəzərindən təhlil cəhdi ilə izah olunur. SSRİ-nin dağılmasından keçən iyirmi il tədqiqatçı-alimlərə sovet siyasi sistemi problemlərinin təhlili zamanı daha oyektiv, neytral olmaq, araşdırmaların daha düşünülmüş və hərtərəfli aparmaq imkanı yaratmışdır. Nəticədə Azərbaycanın sovetləşməsində bir sıra inqilabçıların roluna yeni baxış keçirilmiş, bəzi inqilabçılar “tarixin bəraətini” qazanmışdılar (13). Bu sırada ilk öncə XX əsrin əvvəlindəki siyasi proseslərdə daha çox adı hallanan yerli inqilabcılardan N.Nərimanov qeyd olunmalıdır. Gah millətin mənafeyinə xəyanət etməkdə, gah da milli maraqları qoruduğu

üçün millətçi təmayüldə günahlandırılan N.Nərimanov tarixşünaslığımızın ən ziddiyyətli simalarından birinə çevrilmişdir (7; 11).

Sovet tarıxşünaslığında Azərbaycan ərazisində "sosialist inqilabının qələbəsi" ilə bağlı yaradılmış konsepsiyanın reallıqdan uzaq olması bu proseslərə olan marağı daha da artırmış, ziddiyyətli mənbələr isə tədqiqaçılara müxtəlif fərziyyələr formalaşdırmaq imkanı vermişdir.

XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş gərgin ictimai-siyasi durum, ağır sosial problemlər bu ərazidə sosialist inqilabını mümkün edirdi. Lakin xalqın siyasi savadlılıq səviyyəsi, siyasi proseslərə cəlb olunma miqyası, siyasi dəyişiklikləri qəbul etmək bacarığı və daha bir neçə ciddi səbəblər bu inqilabda müsəlman kütləsinin iştirakı ehtimalını heçə endirirdi. Azərbaycanda siyasi söz sahibi olanlar, Azərbaycan siyasi səhnəsinin aktiv oyunçuları, siyasi ideyaların yaradıcıları, bir sözlə siyasi elita isə qeyri-millətin nümayəndələri idi. Müasir Azərbaycan tarixşünaslığı Azərbaycan cəmiyyətinin ümumiyyətlə sosialist ideyalarını qəbul etmədiyini israrla iddia edir və bu fikri aşağıdakı səbəblərlə əsaslandırır:

1. XX əsrin əvvəllərində Azərbaycan əhalisinin böyük əksəriyyətinin kəndlilər təşkil edirdi, onlar isə inqilabi fikir və hərəkatdan uzaq idilər;
2. Kollektivçilik prinsipi Azərbaycan cəmiyyətinə zidd idi, Azərbaycanda fərdilik daha çox inkişaf etmışdi, bu isə sosializm prinsiplərinə uyğun gəlmirdi;
3. Azərbaycanda sosialist inqilabını edəcək fəhlə sinfi yox idi, fəhlələr əsasən qeyri-millətlərin nümayəndələri idi;
4. Azərbaycanda kütlələri inqilab üçün səfərbər edəcək nə partiya, nə də siyasi lider var idi;
5. Azərbaycanlı siyasətçilər milli dirçəliş prinsiplərini rəhbər tutaraq, milli emansipasiyaya, milli müqəddəratın təyin edilməsinə nail olmağa çalışırdı.

Bununla yanaşı, müasir tarixşünaslıq Azərbaycanın XI Ordu tərəfindən demək olar ki, müqavimətsiz işğal olunması, əhalinin ilk dövrdə bolşeviklərə loyal münasibəti, işğal zamanı milli ordu əsgərlərinin bolşevik təqibindən gizlənən milli hökumət nazirlərini işğalçılara təslim etməsi faktını da danmır. 1920-ci ildə Azərbaycanda baş verən siyasi prosesin təhlili zamanı sosialist inqilabı yaxud dövlət çevrilişi dilleması qarşısında qalmasaq da Azərbaycan cəmiyyətinin hansı əsaslarla sosialist ideyalarından imtina etməsi, yerli bolşeviklərin isə hansı zəmində kommunist partiyası ilə sazişə girməsi məsələsi maraq doğurmaya bilməz.

Təqdim olunan məqalənin əsas məqsədi 1920-ci illərin əvvəllərində Azərbaycan siyasi elitasının tərkib hissəsi olan azərbaycanlı bolşeviklərin sadəcə milli kommunist, yaxud millətçi kommunist olmalarını müəyyənləşdirməkdir. Əslində bu mövzu vətən tarixşünaslığı üçün yeni bir problem deyil, lakin dərin təhlil bu sahədə tutarlı sözün Vətən tarixçilərinə deyil, xarıcı tədqiqatçılara məxsus olduğunu göstərir. (5) Beləliklə, 1920-ci illərdə Azərbaycanı

ali siyasi hakimiyyətdə təmsil edənlər kimlər idi və onlar sosialist düşərgəsinə hansı yolla gəlmişdilər?

İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycanda sosialist ideyalarının yayılması istiqamətində bir neçə siyasi partiya (Hümmət, Rüsiya Kommist Bolşeviklər Partiyasının Bakı Komitəsi (BK), Birlik, Ədalət, Xalqçı və s.) fəaliyyət göstərirdi. Bu təşkilatlar içərisində azərbaycanlıların təmsil olunduğu üç qurum - Hümmət, Ədalət və sol türk sosial-inqilabçılar (eser) var idi. Hümmət və sol eserlər Rusiya imperiyasının vətəndaşları olan Azərbaycan turklərini, Ədalət İran dövləti vətəndaşları olan azərbaycan türklərini birləşdirirdi. Sosialsit inqilabı və bolşevik hakimiyyətinin tərəfdarı olan bu partiyaları Rusiya bolşeviklərindən fərqləndirən yeganə cəhət onların dövlət müstəqilliyi ideyasını müdafiə etməsi idi. Sol eserlerin ən fəal üzvləri R.Axundov, M.D.Hüseynov, H.Cəbiyev, Ə.Bayramov və b. idilər. Nə eserlər, nə də hümmətçilər azərbaycanlılar içərisində geniş nüfuza malik deyildilər. Yalnız müsəlman ziyalılarının bir qismi sol eserlərə rəğbət bəsləyirdi.

1918-ci ilin mart hadisələri əhali içərisində milli siyasi partiyalara münasibəti daha da sərinləşdirdi. 1919-cu ildə M.Ə.Rəsulzadə "Azərbaycan" qəzetinin səhifələrində yazırdı ki, Musavat Mart hadisələrinə görə məsuliyyət daşıyır, belə ki, müharibəni başlayan heç olmazsa hər hansı bir fiziki gücə malik olmalıydı ki, bu da Müsavatda olmadı. Digərləri, Musavatı Azərbaycanın müstəqillik ideyasını müdafiə etmək üçün Mart hadisələrini törətməkdə günahlandırırdı. Əgər biz azadlığımızın düşmənləri qarşısında baş əysəydik bu hadisələr çox guman ki, baş verməzdi.

1918-ci ildə Hümmət parçalandı. Bu təşkilatın rəhbəri və aparıcı qüvvəsi olan N.Nərimanov, D.Bünyadzadə, M.İsrafilbəyov (Qədirli) və b. Sovet Rusiyasına getdi. Bakıda qalan Ə.Əliyev, Y.Məlikov, Ə.B.Məmmədzadə və b. menşevik hümmətçilərlə (İ.Əbilov, Ə.Pepinov, S.Ağamalı oğlu, Ə.Qarayev, K.Camalbəyov) birləşmək qərarına gəldilər. 1919-cu ilin əvvəlində hümmətçilərin sağ qolunda kommunist meyllərin güclənməsi müşahidə olunur. Hümmət Mərkəzi Komitəsində bolşeviklər sayca menşevikləri üstələyir (1, siy.10, iş 98, v.15). 1919-cu ilin yayında isə sol eserlər partiyanı buraxaraq, artıq tam bolşevikləşmiş «Hümmət»ə birləşirlər.

Beləliklə, Azərbaycan bolşevik partiyasının özəyini əslində üç siyasi istiqamətin təmsil olunduğu partiyaların nümayəndələri təşkil edirdi və bu nümayəndələr Azərbaycanın gələcəyini Rusiya tərkibində müxtar və ya müttəfiq respublika kimi deyil, müstəqil dövlət kimi görürdülər. Bu ideya həm hümmətçilərin, həm də eserlərin proqram sənədlərində qeyd olunmuşdu.

1919-cu ilin sonu - 1920-ci ilin əvvəlində XI Ordunun Azərbaycan sərhədlərinə yaxınlaşması ilə RK(b)P MK-sı müstəqil Azərbaycan kommunist partiyasının yaradılması ideyasını reallaşdırmağa başladı. 1920-ci il yanvarın 3-də RKP(b) MK-nın Siyasi Bürosu Qafqazın partiya təşkilatları haqqında məsələ müzakirə etdi. Məhz bu yığıncaqda Azərbaycan kommunist partiyasının yaradılması məsələsi qaldırıldı. Gürcü kommunistləri buna qəti etiraz

etdilər, əks təqdirdə Gürcüstanın da müstəqil kommunist partiyası yaratmaq istəyəcəyini vurğuladılar (9, 482-483).

RK(b)P MK-nın 1920-ci il iyulun 30-da keçirilən plenumunda Azərbaycan kommunist partiyasının yaradılması haqqında qərar qəbul edildi (həmin gün Ermənistan və Gürcüstan kommunist partiyalarının yaradılması haqqında analoji qərar qəbul edilmişdi). Bu hadisədən bir neçə ay öncə, 1920-ci il fevralın 11-də, Bakıda Azərbaycan Kommunist Partiyasının (bolşeviklər) birinci, təsis qurultayı keçirildi. Azərbaycanda RK(b)P Bakı Komıtəsinin fəaliyyət göstərdiyi halda müstəqil Azərbaycan kommunist partiyasının yaradılması isə yalnız bir səbəbə bağlı idi: Azərbaycanlı kommunistlər ruslar, ermənilər və digər millətlərin təmsil olunduğu kommunist partiyasına üzv olmaq istəmirdilər. Onlar yaranacaq kommunist partiyasının yalnız onlara məxsus olmasını, gələcəkdə bu partiyanın rəhbərlik edəcəyi dövlətin də yalnız onların idarəçiliyində olmasını istəyirdilər. "Sovet Azərbaycanı Azərbaycanlı kommunistlər tərəfindən idarə olunmalıdır" ideyası Leninin millətlərin öz müqəddaratını təyin etməsi fikrinin birmənalı qəbul edilməsi idi.

Təsis qurultayının seçdiyi Mərkəzi Komitə (MK) Hümmət, Ədalət və RK(b)P BK-nın üzvlərindən ibarət oldu. AK(b)P MK-nın 1920-ci ilin iyulunda keçirilən plenumunda onun iki Bürosu-Siyasi və Təşkilati, seçildi və katib vəzifəsi təsis edildi. N.Nərimanov, V.Naneyşvili, M.D.Hüseynov, A.Mikoyan, V.Lominadze Siyasi Büronun, Sarkis (S.A.Danielyan), Q.Sturua, V.Naneyşvili, D.Bünyadzadə, Ə.H.Qarayev isə Təşkilati Büronun üzvləri seçildi. Həm siyasi, həm də təşkilati büroların üzvü olan V.Naneyşvili partiya katibi vəzifəsinə seçildi. Azərbaycan kommunist partiyası beynəlmiləl partiya oldu. Onun rəhbəri iəs azərbaycanlı deyil, gürcü secildi. Partiyanın 1920-ci ilin iyulunda qəbul etdiyi qərarda onun RK(b)P-nın Qafqaz Bürosuna tabe olmaq şərtilə Vilayət partiya təşkilatı statusuna malik olması göstərilirdi. Məhz buna görə AKP(b)-nın nə nizamnaməsi, nə də proqramı var idi. AK(b)P öz işini RK(b)P-nın proqram sənədləri, qərar və qətnamələri əsasında qurmalıydı.

Azərbaycanın milli kommunistləri (N.Nərimanov, H.Sultanov, M.D.Hüseynov, Ə.Xanbudaqov, Ç.İldırım, T.Quliyev, Q.Musabəyov və b.) sosial mənşəcə kimlər idi? Məsələn, bu kateqoriyanın tipik nümayəndəsi Qəzənfər Müsabəyov Bakı quberniyasının Quba qəzasının Pərəbidil kəndində mülkədar ailəsində anadan olmuşdu. Q.Musabəyov ixtisasca həkim idi, 1917-ci ildə Kiyevdə müqəddəs Vladimir universitetini bitirmişdi. Q.Musabəyov sosial-demokrat hərəkatına 30 yaşında qoşulmuş, 1922-ci ildən, N.Nərimanov Azərbaycanı tərk edəndən, 1938-ci ilədək AzSSR Xalq Komissarları Sovetinin (XKS) sədri vəzifəsini tutmuşdu.

Mirzə Davud Bağır oğlu Hüseynov 1884-cü ildə Bakıda ruhani ailəsində anadan olmuşdu. Moskvada Kommersiya İnstitutunu bitirmiş, sosial-demokrat hərəkatına 34 yaşında qoşulmuşdu. İlk azərbaycanlı MK katiblərindən olan M.D.Hüseynov uzun müddət respublikada rəsmi olaraq ikinci şəxs sayılırdı.

Əyyub Şirin oğlu Xanbudaqov 1893-cü ildə Gəncədə bəy ailəsində ana-

dan olmuşdu. Bakıda gəmiçilik məktəbini bitirmiş Ə.Xanbudaqov inqilabi hərəkata qismən gənc yaşlarında, 25 yaşında qoşulmuş, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ən məsul vəzifələrdə çalışmışdır.

Mustafa Quliyev Şəkidə xırda tacir ailəsində anadan olmuşdu. Kiyev universitetinin fizika-riyaziyyat fakültəsini bitirmiş M.Quliyev 1918-ci ildən RSDFP üzvü idi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Lənkəran qəzası inqilab komitəsinin sədri, Azərbaycan SSR xalq təhsil komissarı kimi məsul vəzifələrdə çalışmışdı.

Bəy nəslindən olan M.N.İsrafilbəyov (Qədirli). Kiyev universitetinin tibb fakültəsini bitirmiş, 1911-ci ildən RSDFP-nın üzvü idi. 1921-22-ci illərdə AzSSR xalq sosial təminat komissarı, 1922-1934-ci illərdə isə AzSSR xalq səhiyyə komissarı vəzifələrində çalışmışdı, 1920-35-ci illərdə AzK(b)P MK-nın üzvü olmuşdu.

Beləliklə, milli kommunistlər fəhlə mənşəyinə malik olmayan, orta təbəqənin nümayəndələri idilər. Onların bir qismi (N.Nərimanov, R.Axundov, M.D.Hüseynov) dini abı-havanın güclü olduğu mühitdə tərbiyə almışdı. Milli kommunistlərin böyük əksəriyyəti Rusiya ali məktəblərini bitirmiş və sosial-demokratik ideyalarla da orada tanış olmuşdular. H.Sultanovu (o, Almaniyanın Leypsiq Politexnik institutunda təhsil almışdı) çıxmaq şərtilə onların hec biri Avropada olmamış və Avropa siyasi fikri ilə tanış deyildilər.

AK(b)P-nın əsas dayağı olan milli kommunistlərin bir qismi mərkəz tərəfindən respublikaya aprel hadisələrindən sonra gəlmişdi. Azərbaycanlı bolşeviklər əsasən hökuməti təmsil edirdilər. Partiya hakimiyyəti isə qeyri-millətlərin nümayədələrinin çoxluq təşkil etdiyi Bakı Komitəsinin əlində cəmləşmişdi.Sovet hakimiyyətinin qurulduğu ilk dövrdə yerlərdə inqilabın dayağını yaratmaq məqsədilə bir sıra milli kommunistlər əyalətlərə göndərildi. Onlar yerli əhaliyə, Azərbaycan əhalisinin böyük əksəriyyətini təşkil edən kəndli kütləsinə sosialist ideyalarını anlaşılan dildə izah etməli idilər. Beləliklə, siyasi hakimiyyətdə milli kommunistlərin sayı ilə qeyri-milli kommunistlərin sayı arasında dərin disbalans yaranırdı. Milli kommunistlər arasında nüfuz dairəsi uğrunda gedən mübaizə isə bu disbalansı daha da dərinləşdirdi.

N.Nərimanov və tərəfdarları (H.Sultanov, S.M.Əfəndiyev, D.Bünyadzadə və b.) respublika partiyasının sağ, Ə.H.Qarayev, R.Axundov, M.D.Hüseynov, Ə.Xanbudaqov və b. isə sol təmayülü təmsil edirdilər. Sağ təmayül müsəlman, sol təmayül isə beynəlmiləl tərkibə malik idi. Əslində bu iki təmayül arasında gedən mübarizə hakimiyyət uğrunda mübarizədən başqa bir şey deyildi, sağlar bu mübarizədə milli məsələlərə xüsusi həssaslıq göstərərək sosial dəstək qazanmağa can atır, sollar isə mərkəzin nüfuzuna arxalanırdılar. Təəssüflə qeyd etmək lazımdır ki, əslində hər iki təmayül mərkəzin siyasi oyuncağına çevrilmişdi.

Siyasi hakimiyyəti əlində cəmləşdirməyə çalışan N.Nərimanov respublikaya tam nəzarət etmək imkanından məhrum idi. Azərbaycan müvəqqəti inqilab komitəsinin və AzSSP Xalq komissarları sovetinin sədri vəzifəsini tutmuş

N.Nərimanovun sərəncam və qərarları qanun statusuna malik olmalı idi. Lakin praktikada bu belə deyildi. N.Nərimanovun sərəncam və göstərişləri nəinki müzakirə olunur, hətta açıq-açığına onlara etinasız münasibət göstərilirdi. Bunun əsas günahkarları isə özlərini sovet Azərbaycanının sahibi hesab edən, «inqilabı» öz nailiyyəti kimi qiymətləndirən partiyanın Bakı komitəsinin üzvləri idi. Bakı komitəsinin nüfuzu N.Nərimanovun, milli kommunistlərin nüfuzundan güclü idi. Azərbaycan partiyasında fraksiyaçılıq əslində mərkəz tərəfindən idarə olunur və buna açıq-açığına təkan verilirdi. Buna səbəb isə mərkəzin dövlət müstəqilliyi ideyasına inanmış milli bolşevikləri nəzarətdə saxlamaq istəyi idi. Mərkəzin milli bolşeviklərə inanmaması fraksiyaçılığın daim aktual saxlanılması və Bakı Komitəsinə böyük səlahiyyətlərin verilməsi ilə təsdiqlənir.

1920-ci illərin əvvəllərində respublika partiya təşkilatında yaranmış vəziyyətlə əlaqədar Qafqaz Bürosunun 1921-ci ilin avqustunda keçirilən plenumunda Azərbaycanda partiya məsələlərinə aid xüsusi qərar qəbul edildi. Qərarda fraksiyaların buraxılması, S.Qutin, S.Ağamiryan, O.Şatunovskaya və H.Sultanovun fəal fraksiyaçı kimi respublikadan kənarlaşdırılması zəruri hesab edildi. Qərarda həmçinin fraksiyaçıların RK(b)P MK-sı sərəncamına verilməsi qeyd olunurdu. Maraqlıdır ki, bu qərardan sonra Siyasi Büroya müraciət edən N.Nərimanov qüvvələr nisbətinin onun xeyrinə olmadığını vurğulayır (onu düşərgəsindən H.Sultanov kənarlaşdırılmışdır) və belə şəraitdə işləməyi mümkünsüz sayırdı (8). Əslində N.Nərimanov hakimiyyətin tədricən dövlət orqanlarından partiya orqanlarına transformasiya edildiyini görür və buna qarşı çıxmağa çalışırdı. Bir kommunist kimi N.Nərimanov əslində bu prosesin tərəfdarı olmalı idi. Lakin N.Nərimanovun özü partiyanı deyil, icraedici hakimiyyəti təmsil etdiyi üçün bu prosesə qarşı çıxırdı.Beləliklə, Azərbaycanda milli kommunstlərin siyasi hakimiyyəti məhdud, siyasi proseslərə aktiv müdaxilə etmək şansları isə dar idi.

Milli bolşeviklərin millətçi mövqeyi əsasən iki məsələ ilə, Azərbaycan torpaqlarının (qeyd etmək lazmdır ki, 1920-ci illərdə Azərbaycan Dağlıq Qarabağ, Naxçıvan və Zəngəzur torpaqları uğrunda mübarizə aparırdı) dıgər respublikaların xeyrinə itirilməsinə qarşı çıxmaq və Azərbaycan dilinin dövlət dili statusunu təmin etmək, dövlət aparatını milliləşdirmək ilə şərtlənirdi. Birinci məsələdə N.Nərimanov xüsusi aktivlik göstərmiş, bəzən hətta mərkəzi neft məhsullarından məhrum edəcəyi ilə hədələməkdən belə çəkinməmişdir. Ermənistanın sovetləşməsindən sonra qəbul edilən qərarda mübahisəli torpaqların Ermənistana verilməsinə etiraz edən N.Nərimanov yazırdı: “Vladimir İliç! Çoxmilyonlu xalqın hüquq və hissləri ilə belə zarafat etmək olmaz. Mən qəti şəkildə bildirirəm: siz bizim iradlarımıza fikir verməsəniz mən mərkəz qarşısında geriyə çağrılmağım məsələsini qaldıracağam. Qoy əsrlərdən galmış mürəkkəb milli məsələləri belə asan həll etməyi bacaranlar gəlsinlər” (3, siy.1, iş. 62, v.19) Maraqlıdır ki, torpaqların taleyi həll olunduğu bir dövrdə belə milli bolşeviklər konsensus əldə edərək vahid cəbhədən çıxış etməyə cəhd

göstərmədilər. Torpaqlar məsələsində N.Nərimanovu milli kommunistlərdən demək olar ki, heç kəs dəstəkləmədi.

Azərbaycanda azərbaycan dilinin statusu və dövlət aparatının milliləşdirilməsi ideaysı da milli bolşeviklər tərəfindən birmənalı qarşılanmadı. Milli bolşeviklərin əksəriyyəti açıq şəkildə bu siyasətə qarşı çıxdı. 1920-ci iilərin əvvəllərində müstəqil dövlətçilik ideyasına qarşı çıxan milli kommunistlər R.Axundov, M.D.Hüseynov, Ə.H.Qarayev və b. bu siyahıda idilər. N.Nərimanov isə artıq 1922-ci ildə milli dilin inkişafı əleyhinə çıxanlara cavab olaraq,"Bakinski raboçi" qəzetinin səhifəsində üzünü türk dili dərslərinin ixtisar olunmasına, teatrlarda türk dilində tamaşaların azaldılmasına səsləyənlərə tutaraq yazırdı: "Azərbaycan məlum siyasi və iqtisadi səbəblər üzündən ərazisinin bir hissəsindən, təbii sərvətlərindən imtina edə bilər, lakin öz dilindən imtina edə bilməz və bu dilin Azərbaycan ərazisində əhəmiyyətinin azaldılmasına heç bir vəchlə imkan verə bilməz" (2, siy.74, iş. 128, v.19). Azərbaycanda milliləşdirmə siyasəti bir neçə mərhələdən keçmiş və vaxtilə N.Nərimanovu bu məsələdə dəstəkləməyən və ona qarşı müxalif olan qüvvələr sonralar millətçi təmayüldə təqsirləndirilərək məsul vəzifələrdən uzaqlaşdırılmş, partiyadan xaric edilmişlər.

Azərbaycan tarixinə ilk rəsmi müxalifətçi kimi daxil olmuş Ə.Xanbudaqov AK(b)P-nın 1924-cü ildə keçirilmiş VI qurultayında dövlət aparatının milliləşdirilməsi, Azərbaycan dilinin dövlət dili statusunun təmin edilməsi sahəsində buraxılan nöqsanları kəskin tənqid etmişdi. Milli proletariatın mövcud olmadığı müttəfiq respublikalarda sovet hakimiyyətinin sosial dayağının rus proletariatından ibarət olmasını və bununla əlaqədar kəndlə şəhərin birləşməsində ciddi problemlərin yaranmasını vurğulayan müxalifətçi nəticədə rus şovinizminin möhkəmlənəcəyindən ehtiyat etdiyini bildirirdi. (15) Bu çıxışdan sonra Ə.Xanbudaqov Azərbaycanda siyasi hakimiyyətdən uzaqlaşdırılmış və Moskvaya göndərilmişdir. Ə.Xanbudaqovu millətçilikdə təqsirləndirənlərdən biri, M.C.Bağırov, 1922-ci ildə eyni ittihamlarla üzləşmiş N.Nərimanovla bir cəbhədə olmuşdu. Lakin N.Nərimaovun respublikanı tərk etməsindən iki il sonra onun bu məsələdə mövqeyi qəti dəyişmiş və o, hətta Bakıda Türkoloqların qurultayının keçirilməsinə qarşı çıxaraq, bu cür tədbirlərin millətçiliyi artırdığını söyləmişdi.

1930-cu illərdə R.Axundov eyni ittihamla üzləşməli olmuşdu. Bu ittihamların partiyanın ümumittifaq miqyasda milliləşdirmə siyasəti fonunda irəli sürülməsini absurd adlandıraraq qeyd etmək lazımdır ki, həm Ə.Xanbudaqov, həm R.Axundov müvafiq dövrlərdə siyasi hakimiyyətdə möhkəmlənməyə cəhdlər göstərmişlər, lakin milli kommunistlər tərəfindən bu cür millətçi çıxışlar siyasi xal qazanmaq üçün atılan addım, onlara qarşı ittihamlar isə siyasi karyeraya zərbə üçün bəhanə olmuşdur.

Milli kommunistlərin siyasi səhnədə fəaliyyət istiqamətlərini müəyyənləşdirməyə yardımçı olan digər məsələ onlar arasında mövcud olan şəxsi münasibələr idi. İlk növbədə qeyd etmək lazımdır ki, siyasi ambisiyalar milli

kommunistlərə bir cəbhədə birləşərək millətçi mövqə tutmağa imkan vermirdi. 1920-ci illərin əvvəllərində ali hakimiyyətə iddialı olan N.Nərimanov, Ə.Xanbudaqov, M.D.Hüseynov arasında kəskin münasibətlər mövcud idi. N.Nərimanovu Şərqin Lenini rolunu oynamaqda ittiham edən Ə.Xanbudaqov mərkəzə göndərdiyi məktublarda onu ətrafına türk və fars (İran azərbaycanlıları) fəhlələri toplamaqda günahlandırır və onun tezliklə geriyə çağrılmasını tələb edirdi: "...Məgər praktik işdə yan keçmək, manevr etmək olmazdı? N.Nərimanovun küt ağlı, inadcıl xarakteri buna imkan vermirdi" (14, PR-28787, v.239-249).

1920-ci illərin ortalarından siyasi hakimiyyətə iddialı olan daha iki milli kommunist arasında gərgin mübarizə gedirdi. Ə.H.Qarayev və M.C.Bağırov qarşıdurması zaman-zaman gah birincinin, gah da ikincinin qalib gəlməsi, bir-birlərinə qarşı ifşaedıcı kompramatların toplanması və son nəticədə birincinin ikinci tərəfindən öldürülməsi ilə nəticələndi. Azərbaycan siyasi səhnəsində bu cür mübarizələr, şəxsi zəmində düşmənçilik (hətta qan düşmənçiliyi) səviyyəsinə qalxaraq, xalqın, vətənin mənafeyinin arxa plana keçməsinə, mərkəz tərəfindən vəziyyətin istənilən istiqamətə yönəldilməsinə şərait yaradırdı. Bir sözlə, 1920-ci illərdə Azərbaycanı millətçi deyil, məhz milli kommunistlər idarə etməyə çalışırdılar.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (ARMDA) f. 894.
2. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi və Siyasi Sənədlər Arxivi (ARPİİSSA) f. 1
3. ARPİİSSA, f. 609.
4. Bünyadov Z. Qırmızı terror Bakı: Azərnəşr, 1993, 331 s.
5. Баберовский Йорг. Враг есть везде. Сталинизм на Кавказе. М.: РОССПЭН, 2010, 855 с.
6. Балаев А. Азербайджанское национально-демократическое движение. 1917-1920 гг., Баку, 1990, Элм, 96 с.
7. Əhmədova F. Nəriman Nərimanov. İdeal və gərçəklik. Bakı: Elm və Həyat, 1998, 170 s.
8. Quliyev D. P. V.İ.Lenin: «Necə lazım bilirsinizsə...eləcə edin. Kommunist qəzeti, Bakı, 1990, 30 mart.
9. Гулиев Дж.Б. Борьба коммунистической партии за осуществление ленинской национальной политики в Азербайджане. Баку: Азернешр, 1970, 705 с.
10. Həsənli C. "Ağ ləkə"lərin qara kölgəsi. Bakı, Gənclik, 1991, 200 s.; İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, 184 s.
11. Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 247 s.
12. İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, 184 s.
13. Исмаилов Э.Р. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. 1945-1953. Баку: Адильоглы, 2003, 260 с.
14. Milli Təhlükəsizlik Nazirliyinin Arxivi (MTNA) PR-28787, v.239-249
15. Официальный отдел. Газ. «Бакинский рабочий», №94, (1117) от 27 апреля 1924 г.

# НАЦИОНАЛЬНЫЕ КОММУНИСТЫ ИЛИ НАЦИОНАЛ-КОММУНИСТЫ?

**Ш.Р.МАМЕДОВА**

**РЕЗЮМЕ**

Данная статья посвящена политическим событиям и роли местных большевиков в этих событиях в начале XX века. Центральным вопросом исследования является позиция азербайджанских коммунистов, которые были представлены в высшей политической власти и должны были защищать национальные интересы. Анализируя биографические данные, материалы, посвященные политической карьере этих большевиков, автор приходит к заключению, что обвинить их в национализме не возможно. Поскольку, представляя исполнительную власть, азербайджанские коммунисты не обладали высшей партийной властью и не имели возможности реально влиять на события. С другой стороны личная неприязнь, интриги и группировочная борьба мешали им объединиться вокруг национальных интересов.

**Ключевые слова:** национальные коммунисты, социал-демократические идеи, политическая власть, национализм

# NATIONAL COMMUNISTS OR COMMUNISTS-NATIONALISTS?

**Sh.R.MAMMADOVA**

**SUMMARY**

This article dedicates to the political processes of the early XX century and the role of the Azerbaijani Bolsheviks in those events. The central question is whether the Azerbaijani Bolsheviks who were on the top political power protected national interests and carried on real national policy. Analyzing the biography and the political career of the Azerbaijani Bolsheviks the author argues that there is no cause to charge national communism with nationalism, because national communists didn't have enongh political power to affect to the political processes, they had no real executive communist power. They couldn't reach agreements on the most important questions for the nation such as the territory of the republic and the fortune of the mother tongue.

**Key words:** national communists, social-democratic ideas, political power, nationalism